# Milli Kitabxana növbəti kitab sərgisini virtual rejimdə təqdim edib

**Hər il 14 fevral Beynəlxalq Kitab Bağışlama Günü kimi qeyd edilir. Bu təşəbbüs ilk dəfə 2012-ci ildə ABŞ-da tanınmış uşaq kitabı saytı - "Delightful Children's Books"un yaradıcısı Emmi Brodmur tərəfindən irəli sürülüb və ötən müddətdə sosial şəbəkələr vasitəsilə dünyada geniş dəstək qazanıb. Bu, uşaqlara kitab bağışlayan və onlarda kitaba məhəbbət yaradan bütün insanları birləşdirən bir gündür.**

**Bu münasibətlə, Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan 14 fevral - Beynəlxalq Kitab Bağışlama Günü adlı sərgi virtual rejimdə istifadəçilərə təqdim olunub. Sərgidə fotolar, mövzuya dair kitab və dövri mətbuat səhifələrində dərc olunan məqalələr nümayiş olunur.**

**MEHRİBAN**